**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

**DOI: 10.59610/bbu2.2023.2.3**

*Mustafayev Arif Azər oğlu,*
*doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti,*
*E-mail: mustafayev.arif1996@gmail.com*
*© Mustafayev A.A., 2023*

**UOT: 336.02**

# DÖVLƏTİN MALİYYƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – dövlətin maliyyə təhlükəsizliyinin ölkənin iqtisadi və milli maraqlarına xidməti və onun dövlətin suverenliyi və müstəqilliyinin qarantı kimi əhəmiyyətlərinin nəzəri aspektlərinin araşdırılması, maliyyə təhlükəsizliyinin təmin edilməsi üçün təklif olunan metodların nəzəri-metodiki əsaslandırılmasıdır.

**Tədqiqatın metodologiyası** – tədqiqatda təhlil, şərh, məntiqi ümumiləşdirmə kimi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – ölkənin hərtərəfli bütün əsas maliyyə-iqtisadi proseslərinin dinamikasının təhlilində konseptual maliyyə təhlükəsizliyinin səmərəli sisteminin formalaşdırılması üçün monitorinq yaratmağın, çoxsəviyyəli və tam miqyaslı izləmə sisteminin olmasının vacibliyini ortaya çıxarmaqdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** dövlətin maliyyə təhlükəsizliyinin təmini mexanizmlərinin müəyyən edilməsi və maliyyə təhlükəsizliyinin təkmilləşdirilməsi istiqamətlərinin təhlil edilməsidir.

**Açar sözlər:** dövlətin maliyyə siyasəti, maliyyə sistemi, maliyyə təhlükəsizliyi, iqtisadi təhlükəsizlik, dövlətin maliyyə təminatı.

## G İ R İ Ş

Dövlətin qüdrəti və milli təhlükəsizliyi ölkənin müstəqilliyinin təminatı, cəmiyyətin sabitliyi və səmərəliliyi üçün şərait kimi, ilk növbədə, onun iqtisadiyyatının vəziyyəti və maliyyə təhlükəsizliyinə təhdidlərdən qorunması ilə xarakterizə olunur. Dövlətin maliyyə təhlükəsizliyinin təmin edilməsinin nə qədər əhəmiyyətli olması təkcə iqtisadi inkişafın davamlılığı deyil, həm də onun suverenliyi və ərazi bütövlüyündən asılıdır. Məhz pul-kredit siyasətinin realizəsi, valyuta və vergi tənzimlənməsinin təşkili dövlətin maliyyə sisteminin əsasını təşkil edir. Müasir şəraitdə geomaliyyənin, qlobal maliyyə sistemlərinin ayrıca götürülmüş dövlətə təsiri tamamilə yeni səviyyədə cərəyan edir.

Dövlətin maliyyə təhlükəsizliyi ölkənin maliyyə sisteminin mövcud həlqələrini əhatə edir və maliyyə sektorunun təhlükəsizlik vəziyyətini iqtisadi və inzibati alətlərdən istifadə etməklə təmin edilir. Dövlətin maliyyə təhlükəsizliyi komponentlərinə büdcə,vergi,valyuta, inflyasiya,sığorta bazarının fond və təsərrüfat subyektlərinin,investisiya, maliyyə-pul dövriyyəsinin,

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

kredit-bank sisteminin təhlükəsizliyi daxildir. Müasir dünyada konkret ölkələrin iqtisadi və milli təhlükəsizliyi beynəlxalq maliyyə təhlükəsizliyi ilə sıx bağlıdır o, beynəlxalq ictimaiyyətin səyləri ilə yaradılmışdır.

**Dövlətin maliyyə təhlükəsizliyinin nəzəri-metodoloji istiqamətləri.**

Maliyyə təhlükəsizliyi konsepsiyası 20-ci əsrin ikinci yarısında, maliyyə qloballaşması prosesində risklərin, təhdidlərin və münaqişələr üçün ilkin şərtlərin toplanması ilə təkcə iqtisadi təhlükəsizliyin deyil, həm də iqtisadi təhlükəsizliyin öyrənilməsi zərurəti yarandıqda, həmçinin onun maliyyə komponentinin təhlilinə yönəlmiş xüsusi istiqaməti vurğulamaq lazım olduqda fəal elmi dövriyyəyə daxil oldu. Maliyyə təhlükəsizliyinin qorunmasının əsas prinsipi iqtisadi sistemin gəlir və xərcləri balansına nəzarət və riayət etməkdir.

Maliyyə təhlükəsizliyi makro səviyyədə dövlətin iqtisadi maraqlarının, korporativ strukturların, sahibkarlıq subyektlərinin maliyyə fəaliyyətinin mikro səviyyədə müdafiəsi üçün tədbirlər, üsul və vasitələrin məcmusunu özündə birləşdirən anlayışdır. Dövlətin maliyyə təminatının məzmunu - dövlətin iqtisadi inkişafının davamlılığını təmin etmək; ödəniş-hesablaşma sisteminin və əsas maliyyə - iqtisadi parametrlərin dayanıqlığını təmin etmək; qlobal maliyyə böhranları və dünya iqtisadi təsərüfatlarının (dövlətlər, transmilli korporasiyalar, subdövlət birliklər) eləcə də milli iqtisadiyyat üzrə kölgə strukturları və ictimai-siyasi sistemlərə təsirini neytrallaşdırmaq; xaricə kapitalın böyük miqyaslı sızmasının , iqtisadiyyatın real sektorundan kapital axınının qarşısını almaq; milli büdcə sisteminin resurslarının idarə edilməsi, istifadəsi və bölüşdürülməsi ilə bağlı müxtəlif səviyyəli hakimiyyət orqanları arasında münaqişələrin qabaqcadan qarşısını almaq; maliyyə sektorunda cinayətlərin və inzibati xətaların qarşısının alınmasnda dövlət orqanlarının imkanlarından ibarətdir (3,səh.12).

Bildiyimiz kimi,ölkənin milli və maliyyə təhlükəsizliyinin bütün aspektləri arasında əlaqə olduqca sadə görünə bilər, lakin maliyyə resurslarının çatışmazlığı istər-istəməz iqtisadiyyatın müxtəlif sahələrində zəruri, bəzən isə ən aktual ehtiyacların kifayət qədər maliyyələşdirilməməsinə gətirib çıxarır. Bütövlükdə maliyyə və milli təhlükəsizlik arasında tərs əlaqə mövcuddur.

Qloballaşma dövründə maliyyə böhranları, epidemiyaların baş aldığı,müharibələrin tüğyan etdiyi bir dövrdə böyük əhəmiyyətə və araşdırmağa ehtiyac duyulan, təhlil ediləcək bir məsələ olmağına baxmayaraq, dövlətin maliyyə təhlükəsizliyi hələ də ölkənin iqtisadi və milli təhlükəsizliyi qədər öyrənilmir. Halbuki, maliyyə siyasəti, maliyyə sistemi düzgün qurulmazsa, və maliyyə təhlükəsizliyi təmin edilməzsə, dövlət öz müstəqilliyini, ərazi bütövlüyünü və iqtisadi və milli maraqlarını qoruya bilməz. Bu sahədə mövcud olan tədqiqatlar lazımi səviyyədə deyil, yarana biləcək təhlükələrin spesifikası və tərkibi, düzgün ilkin kateqoriyaları işlənməmişdir. Alimlər dövlətin maliyyə təhlükəsizliyini müxtəlif aspektlərdən izah etməyə çalışırlar.

Maliyyə təhlükəsizliyi – dövlətin öz vəzifələrini və funksiyalarını yerinə yetirmək üçün zəruri olan məbləğlərdə kifayət qədər maliyyə resurslarının formalaşmasını təmin edən, onların hüquqi formalaşdırılmasına və xərclənməsinə müvafiq nəzarəti həyata keçirən iqtisadi vəziyyətdir (4, səh.17).

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

Hər dövlət iqtisadi inkişafına əsaslanaraq öz maliyyə siyasətini yaradır və ona müvafiq fəaliyyət göstərir. Bəzi alimlər aparılan təhlillərə əsaslanaraq maliyyə təhlükəsizliyini düzgün olaraq dövlətin öz milli maraqlarına uyğun müstəqil maliyyə-iqtisadi siyasətin əsas şərti kimi və ya iqtisadiyyatın vəziyyətinə əsasən dövlətin öz vəzifələrini və funksiyalarını yerinə yetirməsi üçün zəruri olan müsbət maliyyə axınlarının formalaşması kimi baxırlar (5, səh.18).

Qloballaşma dövründə ölkənin maliyyə təhlükəsizliyi probleminin səbəblərini aşağıdakılar kimi göstrərə bilərik:

- dünya iqtisadiyyatının qloballaşması;
- makroiqtisadi və qlobal səviyyədə həddindən artıq hərəkətliliyi olan nəhəng kapital kütləsinin yaratdığı gərgin mühit, maliyyə resurslarının yüksək konsentrasiya yaratması;
- maliyyə alətlərinin fərqliliyi və sürətlə dəyişməsi;
- daxili və xarici siyasətin misli görünməmiş qarışması;
- müasir informasiya texnologiyalarının artması;
- maliyyə sisteminin dayanıqlığının olmaması, qeyri-sabitliyinin qlobal artması, təhdidedici səbəblərin olması və s.

Hər bir dövlətin maliyyə təminatı, ilk növbədə, onun maliyyə müstəqilliyi ilə müəyyən edilir ki, siyasi müstəqillikdən fərqli olaraq, hələ heç kim yalnız bəyannamə aktlarının köməyi ilə buna nail ola bilməyib. Maliyyə müstəqilliyi ya var, ya da müəyyən müddət ərzində məqsədyönlü, davamlı səylərlə əldə edilməlidir. Eyni zamanda xarici maliyyə mənbələri böyük əhəmiyyət kəsb edir, ilk növbədə, beynəlxalq maliyyə təşkilatları, kreditor ölkələrin hökumətləri, transmilli korporasiyalar, korporativ və özəl xarici investisiyalar və s. Bir çox cəhətdən dövlətin maliyyə təhlükəsizliyi onun həyata keçirdiyi həm daxili, həm də xarici maliyyə-kredit siyasətinin xarakteri ilə müəyyən edilir.

Dövlətin maliyyə təhlükəsizliyinə ölkənin siyasi iqlimi təsir edir. Belə ki, əgər seçki yarışı ölkənin maliyyə sisteminə ödənilməmiş vergilər, daxili və xarici borcların artması şəklində böyük itkilər verirsə, o zaman, deyək ki, gərgin gözləmədən sonra, əsasən, seçkilərdən dərhal sonra maliyyə bazarlarında canlanma əlamətləri görünür. Səhmlərin qiymətləri durmadan yüksəlir və istiqrazların qiymətləri hökumətə etimadın sübutudur. Maliyyə təhlükəsizliyi çox mürəkkəb səviyyəli bir sistemdir və yuxarıda göstərilən bu tiplərin hər biri özünəməxsus alt sistemlərə malikdir. Yəni dövlətin maliyyə təhlükəsizliyi dedikdə, büdcə, vergi, kredit-bank sistemi, maliyyə pul dövriyyəsi, investisiya, fond və sığorta bazarlarının, valyuta maliyyə təhlükəsizliyi başa düşülür.

Maliyyə təhlükəsizliyinə resurs-funksional yanaşma nöqteyi-nəzərindən, statika baxımından, hüquqi tənzimləmə kontekstindən baxılır. Dövlət orqanlarının təhlükələrin yaranmasına operativ və vaxtında reaksiya verməsi və amilləri zərərsizləşdirə bilməsi üçün onların inkişafına töhfə vermək və potensial sosial-iqtisadi itkilərin qarşısını almaq üçün maliyyə sistemi gözlənilməz və fövqəladə hallar zamanı müəyyən ehtiyatlara malik olmalıdır. Maliyyə sisteminin fəaliyyət istiqamətlərində yaranmış problemlərin həllinə yönəldilmiş maliyyə təhlükəsizliyinin tipərini aşağıdakı kimi sistemləşdirmək mümkündür:

AUDİT 2023, 2 (40), səh. 28-37.
AUDIT 2023, 2 (40), pp. 28-37.
АУДИТ 2023, 2 (40), стр. 28-37.




*Şəkil 1. Maliyyə təhlükəsizliyinin tipləri.*

AUDİT 2023, 2 (40), səh. 28-37.
AUDIT 2023, 2 (40), pp. 28-37.
АУДИТ 2023, 2 (40), стр. 28-37.

İqtisadi ədəbiyyatlarda maliyyə təhlükəsizliyi anlayışının aşağıdakı xüsusiyyətləri vardır:

1. Maliyyə təhlükəsizliyi iqtisadi təhlükəsizliyin əsas elementlərindən biridir.

2. Maliyyə təhlükəsizliyi kəmiyyət və keyfiyyət göstəriciləri sistemindən istifadə etməklə xarakterizə edilə bilər.

3. Maliyyə təhlükəsizliyinin göstəriciləri təşkilatın maliyyə sabitliyini mühakimə etmək üçün həddi dəyərlərə malik olmalıdır.

4. Maliyyə təhlükəsizliyi onun inkişafını və davamlılığını təmin etməlidir. Təşkilatın inkişafının göstəricisi onun real dəyərinin artmasıdır, davamlılığın göstəricisi isə həm uzun, həm də qısa müddətdə maliyyə balansıdır.

5. Maliyyə təhlükəsizliyi təşkilatın maliyyə maraqlarının qorunmasını təmin edir.

Maliyyə təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsidir və eyni zamanda iqtisadi təhlükəsizliyin digər növlərindən fərqli olaraq öz strukturuna və fərdi həyata keçirmə mexanizminə malikdir. Bundan əlavə, maliyyə təhlükəsizliyi digər iqtisadi və milli təhlükəsizliyin təmin edilməsi proseslərindən ayrılmazdır. İqtisadi təhlükəsizliyə şərait yaratmaqda birləşdirici əsas kimi çıxış edir. Maliyyə təhlükəsizliyinin müstəqil həlqəsi iqtisadiyyat subyektinin maliyyə təminatıdır, çünki dövlət iqtisadiyyatının tam fəaliyyət göstərən subyektləri ölkənin bütün maliyyə-iqtisadi sisteminin inkişafı üçün ilkin şərtdir. Maliyyə təhlükəsizliyinin qorunmasının əsas prinsipi iqtisadi sistemin gəlir və xərcləri balansına nəzarət və riayət etməkdir. İnkişafa təsir edən əsas amilləri müəyyən etmək, habelə biznesin inkişaf tendensiyalarını proqnozlaşdırmaq üçün təşkilatın maliyyə vəziyyətinin qiymətləndirilməsi aparılır.

**Azərbaycan Respublikasının maliyyə təhlükəsizliyinin təkmilləşdirilməsi məsələləri.**

Ümumiyyətlə, dövlətin maliyyə təhlükəsizliyinin mahiyyəti milli maraqlara uyğun müstəqil maliyyə-iqtisadi siyasəti həyata keçirmək, ödəniş-hesablaşma sisteminin və əsas maliyyə-iqtisadi parametrlərin sabitliyini təmin etmək, qlobal maliyyə böhranlarının təsirini neytrallaşdırmaq, milli iqtisadi və ictimai-siyasi sistemi üzrə məqsədyönlü hərəkətləri, kölgə strukturların, irimiqyaslı kapitalın xaricə axını, iqtisadiyyatın real sektorundan kapitalın yayındırılması, çirkli pulların yuyulmasına qarşı mübarizə və s. bacarığından ibarətdir. Maliyyə sisteminin sabitliyi büdcə kəsirinin səviyyəsi, qiymət sabitliyi, maliyyə axınlarının və hesablaşma münasibətlərinin normallaşması, bank sisteminin və milli valyutanın sabitliyi, xarici və daxili borcun azalması və investisiya fəaliyyətinin gücləndirilməsi üçün maliyyə şəraitinin təmin edilməsi ilə müəyyən edilir.

Maliyyə təhlükəsizliyinin təmin edilməsinin dövlət-hüquqi mexanizmi dövlətin maliyyə sisteminin davamlı fəaliyyəti və dayanıqlı inkişafı üçün zəruri şəraitin yaradılmasına, habelə onun müəyyən edilməsinə, və qarşısının alınmasına yönəlmiş qanunla müəyyən edilmiş orqan və qurumların məcmusudur. Bu mexanizm bir-biri ilə əlaqəli bir neçə komponentdən ibarətdir:

1. Hüquqi - ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsi sahəsində hüquqi aktların məcmusu;

2. İnstitusional - ölkənin maliyyə təhlükəsizliyini təmin edən dövlət qurumları və orqanları sistemi;

3. İnstrumental - maliyyə təhlükəsizliyini təmin etmək üçün istifadə olunan texnika və üsullar sistemi.

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

Dövlətin maliyyə təhlükəsizliyini təmin edən dövlət orqanları sistemi əsasən iki əsas səviyyədən ibarətdir. Qloballaşma dövründə maliyyə sisteminin rolu və əhəmiyyəti kəskin şəkildə dəyişmiş və maliyyə iqtisadi proseslərə xidmət alətindən iqtisadiyyatın və cəmiyyətin inkişafı üçün güclü mühərrikə çevrilmişdir. Dünya iqtisadi və siyasi əlaqələrinin qloballaşmasının getdikcə artması şəraitində onun rolu yalnız zaman keçdikcə artır və yeniləşir. Belə ki, maliyyə sektoru və maliyyə kapitalı təkrar istehsal prosesinə xidmət edən vasitəçidən onun əsas halqasına çevrilmişdir. Dövlətin maliyyə təminatı dövlətin öz milli maraqları çərçivəsində müstəqil maliyyə-iqtisadi siyasəti həyata keçirə bilməsinin əsas şərtidir. Dövlətin maliyyə təhlükəsizliyi dövlətin maliyyə sisteminin, onun bütövlüyü, inkişafı, rəqabətqabiliyyətliliyi və davamlılığı ilə xarakterizə olunur, milli təhlükəsizliyin təmin edilməsi üçün iqtisadi və sosial siyasətin həyata keçirilməsi üçün zəruri baza təmin edir və dövlətin təhlükəsizliyinə, daxili və xarici təhdidlərə qarşı mübarizəsini təşkil edir.

Müasir dövrdə maliyyə təhlükəsini şərti olaraq iki qrupa bölmək olar. Bunu aşağıdakı şəkildə aydın görmək olar (Şəkil 2).




***Şəkil 2. Maliyyə təhlükəsininin qrupları.***

Şəkildə göstərilən maliyyə təhlükəsi qrupları təhlil edilməli onların yarada biləcək təhlükənin qabağı alınmalıdır. Görülən bu tədbirlər və dövlətin maliyyə sistemindəki islahatlar onun maliyyə təhlükəsizliyini təmin etmiş olacaqdır.

Ölkənin maliyyə təhlükəsizliyinin əsas şərti milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət artımıdır. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 №-li Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında digər məsələlərlə yanaşı, ölkə iqtisadiyyatının inkişafı, hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin qorunub saxlanması məqsədi ilə yatırılan sərmayələr üçün əlverişli şəraitin

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

yaradılması məsələsi də əsas götürülmüşdür. Bazar iqtisadiyyatının formalaşması, fəaliyyəti və gələcək inkişafı maliyyəsiz mümkün deyildir. Maliyyə-dövlətin vəzifə və funksiyalarını yerinə yetirmək və geniş təkrar istehsalın şərtlərini təmin etmək məqsədi ilə mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının formalaşması, bölgüsü və istifadəsi ilə əlaqədar iqtisadi münasibətləri ifadə edir. Bilirik ki, iqtisadi təhlükəsizliyin mürəkkəb kateqoriya olaraq, təbii resurs, enerji, qida, elmi-texniki, xarici iqtisadi, maliyyə kimi formaları mövcuddur. Belə ki, iqtisadi təhlükəsizliyin ən mühüm komponentlərindən biri maliyyə təhlükəsizliyidir, onu təmin etmədən ölkədə hər hansı bir vəzifəni həll etmək mümkün deyildir.

Hazırda Azərbaycanın maliyyə təhlükəsizliyinin əsas obyektləri aşağıdakılardır:
- tədavüldə olan pul kütləsinin həcmi;
- milli iqtisadiyyatın fəaliyyətində valyuta fondları;
- büdcələşdirmə prosesi;
- xarici və daxili dövlət borcu;
- investisiya fəaliyyəti;
- bank sistemi;
- sığorta bazarı;
- səhmlər və bod bazarı.

Nəzərə alsaq ki, maliyyə təhlükəsizliyi mürəkkəb kateqoriyadır və onun tərkib hissələri sıx qarşılıqlı asılılığı və qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur, onda maliyyə təhlükəsizliyinin bəzi parametrlərində yaranan çatışmazlıqlar və səhvlər dərhal digərlərinə öz təsirini edir. Fikrimizcə, dövlətin maliyyə təhlükəsizliyi sahəsində hazırladığı strategiya özündə aşağıdakıları əks etdirməlidir:

− dövlətin maliyyə siyasətinin, maliyyə sisteminin elementləri və ölçü vahidlərinin müəyyən edilməsi;

− baş verə biləcək təhlükələrin aşkar edilməsi və onların aradan qaldırılması üsullarının müəyyən edilməsi;

− maliyyə təhlükələrinin daşıyıcılarının müəyyən edilməsi;

− təhlükələ yarada biləcək subyektlərin , amillərin, idtiqamətlərin araşdırılması və təhlükəni aradan qaldıracaq tədbirlərin işlənib hazırlanması.

Ölkəmizdə maliyyə təhlükəsizliyinin təmin edilməsində xüsusi rolu, ilk növbədə, dövlətin pul siyasətinin maliyyə siyasətinə əsasən fəaliyyət göstərən və bu vəzifənin yerinə yetirməsi həvalə edilmiş Azərbaycan Milli Bankı oynamalıdır.

Azərbaycan Respublikası Prezidentinin Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamında qarşıya qoyulmuş vəzifələrin icra edilməsi məqsədilə hazırlanan və prioritet məsələləri özündə əks etdirən Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi dövlətin maliyyə sisteminin təkmilləşməsi üşün şərait yaratmış olacaqdır. Bu sənəddə irəli sürülən vəzifələrin məqsədi maliyyə xidmətləri üzrə 2025-ci ilədək olan dövr üçün səmərəli tənzimləmə və qanunvericilik çərçivəsi ilə dəstəklənən, bütün müştəri qruplarını genişçeşidli maliyyə xidmətləri ilə təmin edən dayanıqlı, sağlam və tarazlaşmış maliyyə sistemi formalaşdırmaqdır. Həmçinin, sənədin digər vacib məsələsi xarici investorlar üçün cəlbedici və regional səviyyədə rəqabətqabiliyyətli maliyyə sektoru formalaşdırmaqdır. Qarşıya qoyulmuş məqsədlərə

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

çatmaq üçün yüksək əməliyyat effektivliyinə malik və mənfəətlə fəaliyyət göstərən və rəqəmsallaşmış bank sistemi formalaşdırılacaq, investisiya məhsulları daxil olmaqla, daha innovativ müştərini nəzərdə tutan bank məhsulları təklif ediləcəkdir. Bunun nəticəsində ölkəmiz maliyyə sektorunun inkişaf üzrə qabaqcıl dövlət kimi beynəlxalq səviyyədə tanınaraq, xarici investorların daha çox cəlb edilməsinə səbəb olacaqdır.

Ümumiyyətlə, "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə aşağıdakı strateji məsələlər qarşıya qoyulmuşdur:

– maliyyə sisteminin daxili və xarici təsirlərə qarşı dayanıqlılığını artırmaq;
– idarəetmədə risklərin azldılması və tənzimləmə mexanizmlərini təkmilləşdirmək;
– maliyyə sisteminin infrastrukturunu gücləndirmək;
– maliyyə sisteminin inkişaf potensialını artırmaq.

Sözsüz, dövlət sənədlərində nəzərdə tutulan və qarşıya qoyulan prioritet məsələlərin həlli ölkənin maliyyə sisteminin inkişafına kömək etməklə, maliyyə təhlükəsizliyini gücləndirəcəkdir.

## YEKUN

Aparılan araşdırmanın nəticəsi olaraq deyə bilərik ki, maliyyə təhlükəsizliyini ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi bütövlükdə dövlətin həyat qabiliyyətliliyində böyük rol oynayır, əhalinin rifahı və ümumi həyat səviyyəsi bilavasitə ondan asılıdır. Məhz buna görə də, hökumətin iqtisadi və siyasi mexanizmlərinin düzgün qurulması dövlətin bütün subyektləri üçün balanslaşdırılmış, sabit və firavan həyat tərzinə aparan düzgün yoldur. Bunun üçün cərəyan edən iqtisadi prosesləri tənzimləyən dövlət orqanlarının vəzifələrini düzgün bölmək və dövlət iqtisadiyyatının inkişafı üçün layihələr hazırlamaq vacibdir. Dövlətin maliyyə siyasəti, maliyyə sistemi və bu sistemin fəaliyyətini həyata keçirən dövlət orqanlarının qəbul edilmiş qanun və sərəncamlar əsasındakı fəaliyyəti dövlətin milli, iqtisadi və sosial siyasətinin düzgün aparılmasının qarantı olaraq maliyyə təhlükəsizliyinin təmini və təkmilləşdirilməsi üçün münbüt şərait yaradacaqdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı.
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
3. Ю.В.Трунцевский., Финансовая безопасность: понятие и виды финансовых преступлений. Вестник 2, 2007. стр. 12.
4. Каратонов М. Е. Финансовая безопасность и финансовый контроль в условиях рыночных отношений // Юрист. 2006. № 6. С. 17.
5. Бурцев В.В. Государственный финансовый контроль и финансовая безопасность // Аудиторские ведомости. 2001. № 9. С. 18.

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

*Arif Azar Mustafayev,*

*Ph.D. Student,*

*Azerbaijan University of Cooperation,*

*E-mail: mustafayev.arif1996@mail.com*

*© A. A. Mustafayev , 2023*

# DIRECTIONS FOR ENSURING THE FINANCIAL SECURITY OF THE STATE

## A B S T R A C T

**The purpose of the research** is to consider the theoretical aspects of the financial security of the state as a service to the economic and national interests of the country and its importance as a guarantor of the sovereignty and independence of the state, as well as the theoretical and methodological justification of the proposed methods. to ensure financial security.

**The methodology of the research** – the study used methods such as analysis, interpretation and logical generalization.

**The practical importance of the research** is to identify the importance of creating monitoring and the availability of a multi-level and full-scale monitoring system for the formation of an effective system of conceptual financial support when analyzing the dynamics of all the country's main financial and economic processes.

**The originality and scientific novelty of the research** lies in the definition of mechanisms for ensuring the financial security of the state and the analysis of ways to improve financial security.

**Keywords:** public financial policy, financial system, financial security, economic security, public financial security.

**AUDİT 2023, 2 (40), səh. 28-37.**
**AUDIT 2023, 2 (40), pp. 28-37.**
**АУДИТ 2023, 2 (40), стр. 28-37.**

*Мустафаев Ариф Азер оглы,*
*докторант,*
*Азербайджанский Университет Кооперации*
*E-mail:mustafayev.arif1996@mail.com*
*© Мустафаев А.А.,2023*

# НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ФИНАНСОВОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВА

## Р Е З Ю М Е

**Целью исследования** является рассмотрение теоретических аспектов финансовой безопасности государства как службы экономическим и национальным интересам страны и ее значения как гаранта суверенитета и независимости государства, а также теоретико-методическое обоснование предложенных методов. для обеспечения финансовой безопасности.

**Методология исследования** – в исследовании использовались такие методы, как анализ, интерпретация и логическое обобщение.

**Практическая значимость исследования** заключается в выявлении важности создания мониторинга и наличия многоуровневой и полномасштабной системы мониторинга для формирования эффективной системы концептуального финансового обеспечения при анализе динамики всех основных финансово-экономических процессов страны.

**Оригинальность и научная новизна исследования** заключается в определении механизмов обеспечения финансовой безопасности государства и анализе направлений повышения финансовой безопасности.

**Ключевые слова:** государственная финансовая политика, финансовая система, финансовая безопасность, экономическая безопасность, государственная финансовая безопасность.

*Məqalə redaksiyaya daxil olmuşdur: 24.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 06.03.2023*
*Çapa qəbul olunmuşdur: 14.03.2023*

*The date of the admission of the article to the editorial office: 24.02.2023*
*Send for reprocessing: 06.03.2023*
*Accepted for publication: 14.03.2023*

*Дата поступления статьи в редакцию: 24.02.2023*
*Отправлено на повторную обработку: 06.03.2023*
*Принято к печати: 14.03.2023*